# Melioratorların peşə bayramı

İyun ayının 5-də rayon suvarma sistemləri idarəsinin kollektivi öz ənənəvi melioratorlar gününü bayramsayağı kimi qeyd etdilər. Kollektiv əvvəlcə şəhər mərkəzindəki ulu öndər Heydər Əliyev parkına gələrək dahi şəxsiyyətin möştəşəm abidəsi önünə gül və çiçək dəstələri qoyaraq ulu öndərə olan böyük hörmət və ehtiramını bildirdilər.



Sonra abidə önündə suvarma sistemləri idarəsinin direktoru Qüdrət Həmidov və idarənin həmkarlar təşkilatının sədri Tofiq Şirinov çıxış edərək kollektivi bu peşə bayramı münasibətilə təbrik etdilər və onlara gələcək işlərində yeni-yeni uğurlar arzuladılar.



# Amerika Birləşmiş Ştatlarının Harvard Universitetinin tələbələri Qəbələdə olmuşlar

Amerika Birləşmiş Ştatlarının Harvard Universitetinin tələbələri Azərbaycan Respublikasına səfərləri çərçivəsində Qəbələ rayonunda olmuşlar. Qonaqları Qəbələ Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Abil Ağasəfov qarşılamışdır. Onlar rayonun sənaye və turizm strukturları ilə tanış olmuş, səfalı yerləri gəzmişlər. Səfərin sonunda bu tanışlıqdan məmnun qaldıqlarını bildirən qonaqlar Şəki şəhərinə yola salınmışdır.



*Son zəng. Son zəng. Son zəng*

# Əlvida məktəb

Mayın 31-i günü müəllimlər və şagirdlər Xırxatala kənd tam orta məktəbin həyatına toplaşmışdılar. Valideynlər və çoxsaylı qonaqlar da buraya təşrif gətirmişdilər. Axı bu gün burada buraxılış siniflərinin son zəngi vurulacaq, gənclər müstəqil həyatın ağuşuna atılacaqlar.

Burada bu gün bayram təntənəsi, müəllim və şagirdlərdə isə bayram əhval-ruhiyyəsi hiss olunurdu.

"Son zəng" tədbirinin keçirilməsinə başlandı. Sonuncu zəng vurulmazdan əvvəl Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi. Tədbiri məktəbin direktoru Əhmədiyyə Hacıyev açdı. O, məktəbdə şagirdlərin təhsili üçün yaradılmış yüksək şəraitdən, yaradıcı əhval-ruhiyyədən, təlim-tərbiyədə, nizam-intizamdan və müasir təlim metodlarına verilən üstünlüklərdən danışdı. Bütün məktəb kollektivini, ələlxüsus onbirinciləri və birinciləri təbrik edərək onlara elm, bilik aləmində uğurlar arzuladı.

Tədbirdə rayon icra hakimiyyətinin nümayəndəsi "Qəbələ" qəzetinin redaktoru O. Məmmədov, Xırxatala kənd bələdiyyəsinin üzvü R. Abdullayev, təqaüdçü müəllimlər M. Məmmədov, Ş. Tahirli və başqaları çıxış edərək məzunları təbrik etmiş və həyatın astanasında olan gənclərin hər birinə həyatda öz yerini tutmağı, mövqe qazanmağı arzuladılar.

Məktəbin müəllimlərindən S. Ağayeva, Ş. Nəsirova, S. Məsimova, Z. Zeynalova məzunlara həyatın çətin sınaqlarından müvəffəqiyyətlə çıxmağı və həmişə qalib olmağı arzuladılar.

Tədbirdə onbirincilər çıxış edərək onlara vaxtı ilə hələ birinci sinifə qədəm qoyarkən qələm tutmağı öyrədən və yuxarı siniflərdə elmin bütün incəliklərini öyrədən sevimli müəllimlərinə təşəkkür və minnətdarlıqlarını bildirdilər.

Birincilər son zəngi çalmış məzunları təbrik etmişlər.

Məzunlar isə onlara hədiyyələr bağışladılar.

Səmərəli fəaliyyətinə görə 2 nəfər müəllim, təhsildə qazandığı uğurlara görə 7 nəfər şagird məktəb rəhbərliyi tərəfindən fəxri fərmanlarla təltif olunmuşdur.

Tədbiri məktəbin direktoru yekunlaşdırdı.

**Mənzər QƏRİBOVA,**
**Xırxatala kənd tam orta məktəbin müəllimi.**

# Uşaqlar bizim gələcəyimizdir

Bu günü dünyanın hər yerində dilindən, dinindən, milli mənsubiyyətindən asılı olmayaraq qeyd edirlər.

1954-cü ildə BMT baş Asambleyasının plenar iclasında qətnamə qəbul edilərək bütün dünyada ilin müəyyən bir gününün beynəlxalq Uşaq Günü kimi qeyd edilməsi qərara alınıb. Bu gün dünyanın ayrı-ayrı ölkələrində müxtəlif vaxtlarda bayram edilir.

Azərbaycan Respublikası 1992-ci ildə BMT-nin «Uşaq hüquqları haqqında» konvensiyaya qoşulub. Konvensiya uşaq hüquqlarının müdafiəsi, onların sağlamlığı, qida ilə təmin olunmasında dövlətlərin bir-birinə qarşılıqlı yardım göstərmələrinə imkan yaradır.

Hazırda Azərbaycan Respublikasında uşaq hüquqlarının müdafiəsi ilə bağlı qanunvericilik bazası formalaşıb. 1998-ci ilin mayında «Uşaq hüquqları haqqında» Qanun qəbul edilib. Qanunda uşaqlar barəsində dövlət siyasətinin hər bir uşağın zəruri maddi və məişət şəraitində böyüyüb tərbiyə olunmasını, təhsil almasını, layiqli vətəndaş kimi formalaşmasının təmin edilməsinə yönəldiyi nəzərdə tutulur.

Dünyada təxminən 130 milyon məktəb yaşlı uşaq məktəbə getmir. Onların üçdə ikisi qız üşağıdır.

Hər il dünyada 12 milyon yaxın uşaq müxtəlif adi xəstəliklərdən vəfat edirlər. Uşaq Haqları Konvensiyasında göstərildiyi kimi hər bir uşağın həyatı və sağlamlığı mühafizə edilməlidir.

Uşaq hüququqlarında deyildiyi kimi «Dövlət uşağa hər hansı formada ayrıseçkilikdən qorumağa borcludur». Uşaq valideynləri dövlət tərəfindən qayğı görmək hüququna malikdir.

Azərbaycan xalqı fəxr edir ki, bu gün Heydər Əliyev siyasi kursunun, onun tarixi, layiqli davamçısı İlham Əliyev davam etdirir. Prezidentimizin ölkəyə rəhbərliyi dövründə Respublikada böyük izlər qoymuş, sosial-iqtisadi inkişaf yüksələn xətt üzrə davam edir.

Respublikamızın bütün sahələrində olduğu kimi uşaqlara, onların təhsilinə, sağlamlığına, yaşayışına daim diqqət göstərilir. Respublika Uşaq Fondunun prezidenti Mehriban Əliyevanın daim uşaqlara göstərdiyi qayğı göz önündədir. Əlil, köməksiz uşaqlar üçün məktəblər, uşaq evləri tikilir və hər cür şərait təmin edilir.

Hər bir uşağın sağlam böyümək, təhsil almaq, azad fikir söyləmək, asudə vaxtdan səmərəli istifadə etmək hüququ var.

Bizdə bu hüquqların qorunub saxlanması üçün, Qəbələ rayon Cavid Yusifov adına UYM-da uşaqların istedadlarının üzə çıxarılması, onların intelektual səviyyələrinin artırılması üçün müxtəlif tədbirlər həyata keçiririk. Arzu edirik ki, bütün uşaqlar böyüyərək məsuliyyətli və layiqli kimi yetişsinlər və cəmiyyətin inkişafında öz əvəzsiz rollarını oynaya bilsinlər.

Dünyanın bütün uşaqlarına aydın səma, parlaq günəş, sevinc dolu günlər arzu edirik.

**Rəfiqə ŞİRİNOVA,**
**Qəbələ rayon C. Yusifov adına Uşaq Yaradıcılıq Mərkəzinin direktoru.**

# Şən və xoşbəxt uşaqlar

1950-ci il iyun ayının 1-də BMT Baş Assambeleyası tərəfindən təşkil olunmuş Qadınların Beynəlxalq Konfransında 1 iyunu uşaqların beynəlxalq müdafiəsinə həsr etmək qərara alınmışdır. Bununla da iyunun 1-i Uşaqların Beynəlxalq Müdafiəsi Günü kimi tarixə düşmüşdür. Dünyanın 190-a yaxın ölkəsində, o cümlədən Azərbaycanda hər il bu gün uşaqlara həsr edilir.

Gələcəyimiz olan uşaqları vətənpərvər ruhda, sağlam böyütmək şəhər 1 nömrəli uşaq bağçasının da gündəlik işinə çevrilmişdir. Bu bağça yeni binaya köçürüldükdən sonra daha ciddi rejimlə işləyir. Rayon



icra hakimiyyəti rəhbərliyinin qayğısı sayəsində hazırda burada tərbiyə alan 90 nəfərə yaxın uşağa hər cür diqqət göstərilir. Bu günlərdə bağçada keçirilən bayram şənliyi bunu bir daha sübut etdi.

**Şöhrət SÜLEYMANOV.**